*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 iyul 2019-cu il № 51 (2368) Qiymləti 30 qəpik


*Ön xətdən reportaj*

# "Ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir"



*Yayın ilk günləridi... Əsrarəngiz yaz fəslindən sonra isti yayın gəlişi nədənsə mənə qələbə ovqatı bəxş edir. Qələbə ovqatlı isti bir yay günündə yolumuz ön xəttədir. Səngərə, əsgərlərlə görüşə tələsirik.*

Artıq hərbi hissənin qərargahındayıq. Zabit Qənbər Orucovla görüşürük. O, söhbət əsnasında Azərbaycan əsgərinin Vətənin keşiyində daim ayıq-sayıq dayandığını, onların mənəvi-psixoloji vəziyyətinin, məişət şəraitlərinin yüksək səviyyədə olduğunu bildirir.

- Çalışırıq ki, Vətənin keşiyində dayanan şəxsi heyətin heç bir problemi olmasın. Ordu rəhbərliyi cəbhə bölgəsinə diqqət və qayğı ilə yanaşır. Ön xəttə edilən səfərlər də bunun bariz nümunəsidir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov və digər rəhbər heyət hərbi hissələrə gəlir, əsgərlərlə görüşür, onların xidmət şəraiti ilə maraqlanır, lazımi tapşırıqlar verirlər. Bunun nəticəsidir ki, əsgərlər xidmətə daha da məsuliyyətlə yanaşır, verilən tapşırıqları düzgün və vaxtında yerinə yetirirlər.

Zabit son vaxtlar keçirilən taktiki təlimlərin də əsgərlərin xidmətinə müsbət təsir göstərdiyindən söz açır: "Keçirilən bu cür təlimlər şəxsi heyətdə ruh yüksəkliyi yaradır. Onlar dərs müddətində qazandıqları bilik və bacarıqları təlim vaxtı praktiki olaraq yerinə yetirmək imkanı qazanırlar. Ermənilər yaxşı bilirlər ki, Azərbaycan Ordusunun sahib olduğu həm peşəkar zabit və əsgər heyəti, həm də arsenalında mövcud olan silah-texnika ilə istənilən an işğal altında olan torpaqları geri qaytarmaq mümkündür."

**(Ardı 3-cü səhifədə)**



"Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabının təqdimatı olub

2-ci səhifədə



Şəhid Elşən Xəlilovun təltif olunduğu medal ailəsinə təqdim edilib

4-cü səhifədə



"Tezliklə Qələbə uvertürasını səsləndirəcəyik"

5-ci səhifədə



"Qələbəyə fiziki cəhətdən də hazırıq"

8-ci səhifədə

# “Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri” kitabının təqdimatı olub



*İyunun 29-da Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin keçmiş deputatı, 1989-1992-ci illərdə Naxçıvan Qarnizonunun rəisi olmuş general-mayor Rostislav Slaboşeviçin "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabının təqdimat mərasimi keçirilib.*

AZƏRTAC-ın Naxçıvan bürosunun verdiyi məlumata görə, təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək deyib ki, yeni nəşrin müəllifi Rostislav Slaboşeviç 1949-cu il iyunun 25-də Minsk şəhərində anadan olub. 1966-cı ildə Xarkov Ali Tank Komandirləri Məktəbinə daxil olub, oranı bitirdikdən sonra 1975-ci ilə qədər Belarusda müxtəlif hərbi vəzifələrdə xidmət edib. 1979-cu ildə Frunze adına Hərbi Akademiyanı bitirdikdən sonra Zaqafqaziya Hərbi Dairəsinə alay komandirinin müavini təyin olunub və Gürcüstanın Duşeti şəhərində xidmət edib. 1983-cü ilin avqustunda Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Qıvraq kəndində yerləşən hərbi hissədə alay komandirinin birinci müavini təyin edilib, 1984-cü ildə isə Gəncə şəhərində alay komandiri vəzifəsinə keçirilib, orada diviziya komandirinin müavini vəzifəsinədək yüksəlib. 1989-cu ildə yenidən Naxçıvana qayıdıb, buradakı 75-ci Motoatıcı Diviziyaya komandir təyin edilib və 1992-ci ilə qədər bu vəzifədə çalışıb.

Diqqətə çatdırılıb ki, Naxçıvanda olduğu illərdə o, alay komandiri, diviziya komandirinin müavini və diviziya komandiri vəzifələrində xidmət edib, əvvəlcə podpolkovnik və polkovnik, daha sonra isə general-mayor rütbəsinə qədər yüksəlib. Naxçıvan Muxtar Respublikasında xidmət etdiyi zaman R.Slaboşeviç ictimai-siyasi fəaliyyəti ilə də seçilib, yerli əhalinin milli adət-ənənələrinə olan münasibətinə görə ictimaiyyət arasında böyük hörmət qazanıb. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyi dövründə diviziyanın silahlarının, hərbi sursatının qorunub saxlanılması və Azərbaycan Ordusuna təhvil verilməsi üçün böyük səy göstərib. Eyni zamanda, diviziyanın şəxsi heyəti ilə Naxçıvan əhalisi arasında mehriban münasibətlərin, dostluq əlaqələrinin yaranmasına nail olub. Naxçıvanın müdafiəsində və Sədərək istiqamətində asayişin bərpa olunmasında göstərdiyi xidmətlər Rostislav Slaboşeviçin əhali arasında nüfuzunu xeyli artırıb.



Cəlil Rüstəmov Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası qarşısındakı xidmətlərinə görə Rostislav Slaboşeviçə Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından təşəkkürünü bildirib, anadan olmasının 70 illiyi və müəllifi olduğu "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabının təqdimatı münasibətilə onu təbrik edib.

Bildirilib ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətdə nəşr olunmuş "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabı ötən əsrin 90-cı illərində Naxçıvanın ağır sosial-iqtisadi və siyasi vəziyyəti ilə bağlı proseslərə həmin dövrün mühüm vəzifəli şəxsinin gözü ilə baxmağa imkan verir. Kitabda müəllifin şəxsən iştirak etdiyi əhəmiyyətli ictimai və dövlət fəaliyyəti ilə bağlı faktlar toplanıb. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının müdafiəsi ilə bağlı gördüyü mühüm işlər generalın şahidi olduğu tarixi proseslər kimi oxucuya çatdırılır. Bununla yanaşı, Ulu Öndərin Naxçıvanda yerləşən sovet ordusunun şəxsi heyətinin yerli əhali ilə münasibətlərinin tənzimlənməsindəki xidmətləri, xüsusilə dağılmış sovet iqtisadiyyatı şəraitində qoşun hissələrinin təminatına xüsusi diqqət yetirdiyi önə çəkilir. Müəllif Ümummilli Liderin gərgin iş şəraitində olmasına baxmayaraq, həmin dövrdə Naxçıvanda rusdilli məktəbin fəaliyyətinin bərpa etməsini böyük minnətdarlıqla qeyd edir. Bu mənada Rostislav Slaboşeviçin kitabı 1989-1992-ci illərdə muxtar respublikada baş verən ictimai-siyasi hadisələrin öyrənilməsində yeni yanaşmanı ortaya qoyan mühüm tarixi sənəddir.

Vurğulanıb ki, kitabda Naxçıvan mətbəxinin zənginliyinə, Naxçıvan əhalisinin qonaqpərvərliyinə, Naxçıvanın təbiətinin gözəlliyinə həsr olunmuş ayrıca bölmələr də var. Müəllif kitabda həmin dövrlə bugünkü Naxçıvanı müqayisə edərək inkişafın heyrətamiz olduğunu, həmçinin respublika rəhbərinin Naxçıvanın müdafiəsi və qorunması üçün böyük işlər gördüyünü, müasir ordu yaradıldığını, əhalinin həyat səviyyəsinin yüksəldiyini böyük qürurla qeyd edir, kitabın nəşrini Naxçıvan və naxçıvanlılar qarşısında mənəvi borcun ifadəsi kimi dəyərləndirir. 1992-ci il avqustun 18-də 75-ci Motoatıcı Diviziyanın silah sursatının Naxçıvana təhvil verilməsi mərasimində ümummilli lider Heydər Əliyev deyib: "Biz belə hesab edirik ki, 75-ci Diviziyanın tərkibində xidmət etmiş hərbi qulluqçular öz vətənlərinə - Rusiyaya, Ukraynaya, Belarusa qayıtdıqdan sonra belə Naxçıvanla öz əlaqələrini kəsməyəcək, Azərbaycanla həmin dövlətlər arasında əlaqələrin yaradılmasında öz səylərini əsirgəməyəcəklər". Bu gün Rostislav Slaboşeviçin yenidən Naxçıvanda olması, "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabını yazması onun ulu öndər Heydər Əliyevin tövsiyələrinə nə dərəcədə sadiq olduğunu bir daha təsdiq edir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev, keçmiş hərbi qulluqçu Sahib Səfərov çıxış edərək bildiriblər ki, ötən əsrin 90-cı illərində Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə çətin sınaqlardan üzüağ çıxaraq bu gün özünün hərtərəfli inkişafını təmin edib. Məhz Ulu Öndərin əvəzolunmaz xidmətləri sayəsində muxtar respublikada ilk milli ordu hissələri yaradılıb, Naxçıvanın təhlükəsizliyi təmin edilib. Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində Sovet İttifaqı, sonra isə Rusiya Federasiyasına məxsus silah-sursat, hərbi texnika, təsərrüfat əmlakı və texniki qurğular Azərbaycanın sərəncamına verilib, ölkəmizin digər bölgələrindən fərqli olaraq burada heç bir dağıntı və talana yol verilməyib. Naxçıvanda yerləşən 75-ci Motoatıcı Diviziyanın zabit və əsgər heyəti, onların ailə üzvləri, başda diviziya komandiri general Rostislav Slaboşeviç olmaqla, 1992-ci il avqustun 18-də xüsusi təyyarə ilə yola salınıblar. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin dəvəti ilə general Rostislav Slaboşeviçin 70 illik yubileyində yenidən Naxçıvanda olması qədirbilən xalqımız üçün xüsusi xidmətləri olmuş insanların unudulmayacağının bariz nümunəsidir.

Çıxış edənlər general Slaboşeviçi 70 illik yubileyi və ərsəyə gətirdiyi "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabına görə təbrik ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin keçmiş deputatı, 1989-1992-ci illərdə Naxçıvan Qarnizonunun rəisi olmuş general-mayor Rostislav Slaboşeviç "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabının yüksək poliqrafik keyfiyyətdə nəşrinə və yüksək səviyyəli təqdimatına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə minnətdarlığını bildirib və imzaladığı kitabın bir nüsxəsini Heydər Əliyev Muzeyinin kitabxanasına hədiyyə edib.

---

Zabitin tribunası

# Daha məsuliyyətlə xidmət edəcəyik

*Peşə seçiminə müxtəlif amillər təsir göstərir. Bunlar hər bir gəncin gələcəyində əhəmiyyəti ilə yadda qalır.*



Mən bütün fənləri maraqla oxuyurdum. Tarix fənnini xüsusən. Xalqımızın uzaq tarixini də, yeni tarixini də maraqla öyrənirdim. Sərkərdələrimiz haqqında oxuduqlarım - Səfəvilər dövləti, böyük şair-sərkərdə Şah İsmayıl Xətainin azərbaycançılıq qüdrəti, Gəncə xanı Cavad xanın Vətən sevgisi, Qarabağ uğrunda gedən döyüşlərin qəhrəmanları düşüncələrimi özünə cəlb etmişdi, məndə hərbçi peşəsinə maraq yaratmışdı. Fikrimi valideynlərim də bəyəndilər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldım və oranı 2010-cu ildə bitirdim.

Ön xətdə xidmətimlə qürur duyuram.

Son illərdə ordumuzda həyata keçirilən irimiqyaslı təlimlər, ordumuzun ən müasir qurğularla təchiz edilməsi, hərbi hissələrin əsaslı təmir olunması təlimlərdə döyüş hazırlığı təkmilləşən şəxsi heyətin mənəvi-psixoloji hazırlığını kifayət qədər yüksəldib. Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərliyinin ön xətdə - səngərlərdə əsgər və zabitlərlə söhbətləri, onların mükafatlandırılması bu hazırlığın daha da dönməzləşdirilməsində əlavə gərəkli bir stimul oldu...

Azərbaycanda ordu dövlət üçün prioritetdir. Dövlət başçısının orduya diqqət və qayğısı daimidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamıyla hərbi qulluqçuların aylıq vəzifə maaşı artırıldı. Bu, böyük qayğının davamı deməkdir. Azərbaycan Ordusunun şəxsi heyəti həmişə Vətənə sədaqətlə xidmət edib. Ölkə başçısının bu miqyasda qayğısı hərbi qulluqçuların xidmətə məsuliyyətini daha da artıracaq. Mən və mənim xidmət yoldaşlarım belə düşünür. İnanıram ki, bütün hərbi qulluqçular da bu fikirdədirlər.

Hər birimiz Ali Baş Komandanın, Müdafiə nazirinin istənilən əmr və göstərişlərini yerinə yetirməyə, Ali Baş Komandanın döyüş əmrinə tam hazırıq.

**Kapitan**
**Rəşad ŞIXIYEV,**
**"N" hərbi hissəsi**

(Əvvəli 1-ci səhifədə)

# "Ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir"

Söhbətimizi yekunlaşdırıb baş leytenant Vüsal Ağalarovla birgə ön xəttə yola düşürük. O da şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan məsul zabitlərdən biridir. Zabit mütəmadi olaraq ön xətdəki mövqelərə gəldiyini, şəxsi heyətin qayğıları ilə məşğul olduğunu deyir. "Bu gün ordu sıralarına çağırılan gənclər Vətənə sədaqət və milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunurlar. Ölkəmiz müharibə şəraitindədir. Buna görə də cəmiyyətimiz gənc nəslin vətənpərvər ruhda yetişməsinə çalışmalıdır. Gənclərimizə Vətənimiz, torpaqlarımız əmanət olunacaq. Torpaqlarımızın işğaldan azad olunması missiyası onların çiyinlərinə düşəcək. Ona görə də hər kəs onlara düzgün istiqamət verməli, Ana Vətən dediyimiz Azərbaycanımızı sevdirməliyik."

Çox çətin və uzun bir yol qət edirik. Avtomobil bu yollarda qalxmaqda çətinlik çəksə də, sürücünün təcrübəli və yola bələd olması sayəsində bütün çətinlikləri arxada qoyuruq, səngərə çatırıq. Burada təmiz əsgər yataqxanası, ayıq-sayıq aparılan döyüş növbətçiliyi səliqə-sahmandan və nizam-intizamdan xəbər verir. Gənc döyüşçülər müxtəlif çaplı silahlarla təmin olunublar. Onlar düşmənlə üzbəüz dayanmağın məsuliyyətini dərk edir, sayıqlığı əldən vermirlər.

İlk olaraq mövqedə leytenant Asim Bağırovla həmsöhbət oluram. 2017-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "ehtiyat zabit hazırlığı" kursunu bitirən zabitə görə ön xətdə xidmət etmək hər kəs üçün məsuliyyətli və şərəflidir. Təmas xəttində xidmət etmələrinə baxmayaraq yuxarı komandanlığın diqqətindən kənarda qalmadıqlarını qeyd edən zabit son zamanlar göstərilən qayğıdan da söz açmağı unutmadı. Qeyd etdi ki, məişət şəraitinin yaxşılaşdırılması, əşya, ərzaq və digər təminatların gücləndirilməsi əsgərlərdə ruh yüksəkliyi yaradır. "İndi orduda xidmət etmək çətin deyil. Yadımdadır, atam hər dəfə hərbi xidmətdən söhbət edəndə, o dövrdə baş verən özbaşınalıqlardan, sosial təminatın aşağı səviyyədə olmasından söz açardı. İndi vəziyyət tamamilə fərqlidir. Atam da fəxr edir ki, Azərbaycan Ordusu qısa bir zamanda güclü və müasir orduya çevrilib. O bilir ki, oğlu üçün hər cür şərait yaradılıb. Bütün Azərbaycan xalqı kimi o da hiss edir ki, güclü ordumuz işğal altında olan torpaqları hər an azad etməyə və üçrəngli Azərbaycan bayrağını ən yüksək zirvələrdə dalğalandırmağa hazırdır."

Əsgər Elmir Əliyev də barıt qoxulu səngərdə xidmət etməkdən qürur duyduğunu bildirir. "Biz qətiyyən düşməndən çəkinmirik, qorxmuruq. Döyüş postunda hər an ayıq-sayıq dayanıb Ali Baş Komandanın əmrini gözləyirik. Valideynlərimə söz vermişəm ki, Vətənimə layiqli övlad kimi xidmət edəcəyəm. Mən xidmətə namərdlik edərək torpaqlarımıza sahiblənmək istəyənləri yer üzündən silməyə gəlmişəm. Qoy düşmən də bilsin ki, Azərbaycan əsgəri qələbəyə köklənib, onun qalib gələcəyi gün uzaqda deyil. Aldıqları nəfəs qədər yaxınıq onlara və almaq istəyəcəkləri son nəfəsin qərarını biz verəcəyik."

- Azərbaycan əsgərisənsə, deməli, güclüsən və bacarıqlısan, - deyə əsgər Sarif Məmmədov söhbətimizə qoşulur. - Bizlər ayıq-sayıq və daim diqqətliyik. Komandirlərimizin verdiyi bütün tapşırıqları vaxtında və dəqiq yerinə yetiririk. Çünki Azərbaycan əsgəri nizam-intizamlı, nümunəvidir. Ən əsası



tarix boyu düşmənlərindən heç vaxt qorxmayıb və qorxmayacaq. Vətən uğrunda son damla qanına qədər vuruşmağa hazırsansa, doğulub boya-başa çatdığın Ana Vətəni sevirsənsə, onda heç kimdən qorxmayacaqsan. Necə ki, Aprel döyüşlərində bizlər canımız bahasına vuruşduğumuz halda erməni əsgərləri öz canlarının hayına düşüb qaçmağa başladılar. Nəticə etibarilə isə ordumuz qalib gəldi və bir çox strateji əhəmiyyətli yüksəkliklər düşməndən azad edildi. Bu torpaqda dünyaya göz açıb, nazneməti ilə böyüyüb boya-başa çatmışıqsa, deməli, Vətənimizi, torpağımızı hər şeydən çox sevməliyik.

Əsgərin bu sözləri mənə sairimiz Abbas Səhhətin "Vətən" şeirini xatırladır. Mənə elə gəlir ki, Azərbaycan ədəbiyyatının klassiklərindən olan Abbas Səhhətin "Vətən" şeirindəki hər misranı səngərdə dayanan əsgərlərimizin gözlərində görürəm. Əsgərlər də qollarını açaraq onlara qoynunda yer verdiyinə, böyütdüyünə görə Vətənə minnətdardılar. Bu gün bu minnətdarlığın əvəzi olaraq əldə silah döyüş növbətçiliyində dayanaraq onu mənfurlardan qoruyurlar.

- Vətəni elə sevməliyik ki, onun hər qarışı uğrunda canımızdan keçməyə hazır olaq, - deyən əsgər Həmid Orucəliyev elə bil fikirlərimi oxudu. - Ağsaqqal söhbətlərinə qulaq asanda dəfələrlə eşitmişik ki, Vətən sevgisi imandan, Vətənə sədaqət, bağlılıq insanın ruhundan gəlir. Həmişə bu millət öz azadlığı, müstəqilliyi naminə düşmənləri ilə vuruşub. İndi də biz gənclərin növbəsidir ki, əcdadlarımızın canları bahasına ucalan bayrağımızı əlimizə alaraq düşmən üzərinə şığıyaq və onları işğal etdikləri ata-baba torpaqlarımızdan qovub çıxaraq.

Əsgər Səbuhi Əliyev də söhbətimizə qoşularaq qeyd edir ki, verdiyimiz şəhidlər, onların ruhu bizim döyüş ruhumuzu yüksəldir, gücümüzə güc qatır. "Düşmən elə bilməsin ki, şəhid olan zabitimizin, əsgərimizin qisası yerdə qalacaq. Qısa vaxtda onlara elə layiqli cavab verəcəyik ki, atdıqları hər gülləyə görə peşman olacaqlar. Bir gün onlar Azərbaycan əsgərindən yaşamaq üçün aman diləyəcəklər. Lakin biz heç vaxt Xocalı soyqrımını, 20 Yanvar hadisələrini törədənlərə aman verməyəcəyik."

Artıq qayıtmaq vaxtıdır. Əsgərlərlə sağollaşıb getmək istəyirdik ki, əsgər Səccad Əhmədli dillənir:

- İnşallah, tez bir zamanda bu yerlərdən qələbə reportajını hazırlayarsınız və yenə də müsahibiniz bizlər olarıq. Sizin qəzet vasitəsilə bütün xalqımızı təbrik edərək, hamımız birlikdə "Yaşasın güclü ordumuz, var olsun Azərbaycan!" deyərik.

Əsgər Səccad Əhmədlinin dilə gətirdiyi bu arzu təkcə onun deyil, dostları Elmirin, Həmidin, Sarifin, Səbuhinin... də arzusu idi. Gözlər qəlbin aynasıdır, deyirlər; bu arzu gözlərindən aşkar oxunurdu. İnanıram ki, onların bu arzusu tez bir zamanda Ali Baş Komandanımızın verəcəyi "İrəli" komandası ilə gerçəkləşəcək və mən bu gənc döyüşçülərimizdən "Böyük qələbənin əsgərləri" adı altında reportaj hazırlayacam.

**Kapitan
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

*"Açıq qapı" gününün təəssüratları*

# "İnam da, etibar da güc deməkdir"

*Son illərdə Müdafiə nazirinin əmri ilə müntəzəm keçirilən "Açıq qapı günü" ordu-ictimaiyyət münasibətlərinin səmimiliklə daha da dərinləşməsində müstəsna əhəmiyyətə malikdir. Bu tədbir təkcə şəffaflığın deyil, həm də etimadın, inamın, etibarın, güvəncin təsdiqidir. Əsgər atalarının ürək sözləri bir mətləbin ifadəsi kimi səsləndi: "İnam da, etibar da güc deməkdir". Bu güc Azərbaycan əsgərinin döyüş hazırığının tərkib hissəsidir.*

**"Azərbaycan Ordusu"**



**İsmayıl Məhərrəmov (Qarabağ müharibəsi veteranı):**

- "Açıq qapı" günü təkcə valideynlərə deyil, əsgərlərə də, zabitlərə də, ictimaiyyətin nümayəndələrinə də könül xoşluğu verir. Son illərdə bu tədbir ordu-ictimaiyyət münasibətlərinin daha da sıxlaşması üçündü. Buna görə də ordu quruculuğunun tərkib hissəsi olub. Əsgərin valideynləri, əzizləri əsgərin necə yüksək səviyyədə təşkil olunmuş şəraitdə xidmət etdiyini görürlər. Bu, əminlik deməkdir. Valideynlər, deməli, ictimaiyyət gücünə, qüdrətinə bələd olduğu ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının səviyyəsini də görür. İctimaiyyətin orduya inamı kimi təşkil edilən "Açıq qapı" günü hərbi hissənin şəxsi heyətinin timsalında ordunun ictimaiyyətə arxalandığının təsdiqidir. Əsgər valideyinlərini görür, əzizlərini, ictimaiyyətin nümayəndələrini, Qarabağ müharibəsinin veteranlarını, əlillərini görür, bu gəlişi, bu qələbəliyi etimad bilir.

"Açıq qapı" günündə 2016-cı ilin Aprel döyüşləri də xatırlandı, ordumuzun 100 illiyinə həsr olunmuş parad da. Bu ovqat aprel zəfərini qazananların davamçıları olmaq istəyən əsgər və zabitlərin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının döyüş əzmidi, qələbə ruhudu.

Təmsil etdiyim ictimai təşkilatın fəaliyyətinin əsasını yeniyetmələrin, çağırışçıların, gənclərin vətənpərvərlik tərbiyəsinin azərbaycançılıq ideologiyasına müvafiq qurulması təşkil edir. Belə tədbirlərdə iştirakımız əsgərlərin mənəvi-psixoloji hazırlığında əhəmiyyətli olur.

2016-cı ilin Aprel döyüşlərində bugünkü əsgərlər məktəbli idi. Veteranların da döyüşlərə getmək istədiklərini görmüşdülər də, eşitmişdilər də. Hər biri birlik komandirinin timsalında ordunun rəhbərliyinin, İcra Hakimiyyəti başçısının timsalında dövlətin onlara ünvanlanan tövsiyələrini yenə böyük sevgilərlə dinlədilər. Tədbirdən sonra valideynlərindən də eyni tövsiyələri eşidəcəkdilər. Yəni, "Açıq qapı" günü həm də şəxsi heyətin vətənpərvərlik ruhunun yüksəldilməsində olduqca əhəmiyyətli vasitələrdəndir...



**Naib Qasımov (əsgər atası):**

- Ordumuzda mən də xidmət etmişəm. Döyüşə-döyüşə xidmət edirdik. Ulu Öndərin sərkərdəlik məharəti ilə Horadiz əməliyyatı keçirildi, qazanılan qələbə düşmənin gözünü qorxutdu, atəşkəs elan edildi.

Bizim övladlarımız atəşkəs dövründə xidmət edir, lakin düşmən atəşkəsi pozur, əsgərlərimiz onların təxribatlarının qarşısını qətiyyətlə alır. Düşmən də bilir ki, Azərbaycan Ordusu həm döyüş hazırlığına, həm də mənəvi-psixoloji hazırlığına görə ondan müqayisəyəgəlməz dərəcədə güclüdür.

"Açıq qapı" günü təkcə valideynlərin oğullarıyla görüş günü deyil, həm də valideynlər üçün də, əsgərlər üçün də vətənpərvərlik tədbiridir.

Mən Gədəbəydənəm. Düşmənin həmlə və hücumları haqqında oğlum İsmayıl hələ hərbi xidmətə gəlməmişdən eşitmişdi. Bir var eşidəsən, bir də var görəsən. Eşitdiklərini tamamlayan gördükləri onun hərbi xidmətə hazırlığında əhəmiyyətli oldu. Andiçmə mərasimində oğlum demişdi: "Biz Lələtəpə, Bayraqtəpə, Günnüt zəfərlərini qazananlarımızın davamçıları olacağıq". Eyni fikirləri, daha qətiyyətlə bu dəfə də dedi. İnandıq ki, Ali Baş Komandan əmr verərsə ordumuz torpaqlarımızı işğaldan tamamilə azad edəcəkdir.

Müdafiə nazirinin əmri ilə keçirilən "Açıq qapı" günü əsgərlər üçün də, valideynlər üçün də, ictimaiyyət üçün də olduqca gərəkli tədbirdir. Mən bu tədbiri təkcə əsgər atası kimi deyil, həm də bir vətəndaş kimi alqışlayıram.

**Fotolar
C.CƏFƏROVUNDUR**

# Şəhid Elşən Xəlilovun təltif olunduğu medal ailəsinə təqdim edilib

*Tərtər rayonu istiqamətində Ermənistan silahlı bölmələrinin atəşkəs rejimini kobud surətdə pozaraq təxribat törətməsi nəticəsində iyunun əvvəlində şəhid olan Azərbaycan Ordusunun əsgəri Xəlilov Elşən Vüqar oğlunun ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" üçüncü dərəcəli medalı bu gün şəhidin ailəsinə təqdim edilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Gədəbəy şəhərində Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə Müdafiə Nazirliyinin rəsmiləri, Gədəbəy rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gədəbəy rayon şöbəsinin əməkdaşları, hərbi qulluqçular, ziyalılar və şəhid ailələri üzvlərinin iştirakı ilə medalın təqdim etmə mərasimi keçirilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni ifa olunub.

Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev çıxış edərək ölkəmizdə ordu quruculuğu sahəsində aparılan islahatlardan, Azərbaycan Ordusunun dünyanın 50 ölkəsinin güclü orduları sırasında yer almasından söhbət açıb. Qələbə qurbansız olmaz, deyən icra başçısı bildirib ki, ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğı dövlət siyasətinin prioritet məsələlərindəndir. O, Azərbaycan Ordusunun yaranmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edərək bildirib ki, bu gün Ümummilli Liderimizin ordu quruculuğu siyasəti möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Qeyd olunub ki, Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşləri zamanı, eləcə də 2018-ci ilin Günnüt əməliyyatı vaxtı düşmənə bir daha nəyə qadir olduğunu sübut etdi. "Gədəbəy rayonunun gəncləri Silahlı Qüvvələrdə Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edirlər. Rayonumuzun onlarla gənci döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Onlardan bir neçəsi ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüblər. Şəhid Elşən Xəlilovun da ailəsi diqqət mərkəzindədir. Onun dəfn mərasimi yüksək səviyyədə keçirilib. Biz möhtərəm Prezidentimizə, Müdafiə Nazirliyinin rəhbərliyinə şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dərin minnətdarlığımızı bildiririk", - deyə İbrahim Mustafayev qeyd edib.

Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Müdafiə nazirinin əmrini oxuyub və medalı şəhidin atası Vüqar Xəlilova təqdim edib. Şəhidin atası və anası "Vətən sağ olsun!" deyərək ölkə rəhbərliyinə, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.



Bir neçə gün öncə Prezidentin sərəncamı ilə medalla təltif olunmuş polkovnik-leytenant Eldəniz Nəsirov çıxış edərək bildirib ki, biz bundan sonra da Elşən Xəlilov kimi igidləri yetirən bir torpağın keşiyində sədaqətlə dayanacaq və torpaqlarımızın düşmən tapdağından tezliklə azad ediləcəyinə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunacağına əminik.

Şəhidin vaxtilə təhsil aldığı Köhnəqışlaq kənd məktəbinin müəllimləri Akif Məmmədov, Tofiq Əliyev çıxış edərək Elşən Xəlilovun hələ orta məktəbdə oxuduğu illərdə onun vətənpərvər şagird olduğunu qeyd ediblər.

Bir neçə gündən sonra hərbi xidmətə yollanacaq çağırışçı gənclər adından Tunar Səfərov çıxış edərək bildirib ki, bu gün əsgər Elşən Xəlilov yoxdursa, onun yüzlərlə, minlərlə davamçıları var. Söz veririk ki, biz də şəhid Elşən Xəlilov kimi Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəyik.

Tədbirin sonunda Azərbaycan Dövlət İqtisad Universitetinin nəşri olan "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" kitab-albomu tədbir iştirakçılarına hədiyyə edilib.

Tədbir vətənpərvərlik şeirləri və mahnıları ilə sona çatıb.

## Azərbaycanın Müdafiə naziri Belarusda bir sıra görüşlər keçirəcək

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Müdafiə naziri general-leytenant Andrey Ravkovun dəvəti ilə iyulun 2-də Minsk şəhərinə yola düşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Belarus Respublikasının alman-faşist işğalçılarından azad olunmasının 75-ci ildönümü və Müstəqillik Gününə həsr olunmuş təntənəli tədbirlərdə iştirak edəcək.

Müdafiə nazirinin həmçinin bu ölkənin hərbi-siyasi rəhbərliyi ilə görüşləri və Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoli Davidoviçin ailə üzvlərini ziyarət etməsi nəzərdə tutulub.

Qeyd edək ki, iyulun 3-də Minsk şəhərində keçiriləcək hərbi paradda Azərbaycan Ordusunun hərbi qulluqçuları da iştirak edəcək.

## Silahlı Qüvvələrə Yardım Fonduna 101 milyon manatdan çox vəsait daxil olub

*Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyulun 1-dək 100 milyon 742 min 334,19 manat, 213 min 577,88 ABŞ dolları, 16 min 936 avro və 5000 rubl vəsait yığılıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

*Redaksiyamızın qonağı*

# “Tezliklə Qələbə uvertürasını səsləndirəcəyik”

*Müsahibimiz Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Hərbi Orkestr Xidmətinin rəisi, Xalq artisti, professor general-mayor Yusif Axundzadədir.*





**- Yusif müəllim, hərbi musiqinin ordu tariximizdə yeri barədə nə deyə bilərsiniz?**

- Hərb tariximizə nəzər salanda görürük ki, döyüşçülərin ruh yüksəkliyini artırmaq üçün hər zaman hərbi müsiqilərə müraciət edilib. Bu musiqilərin səsləndirilməsi düşmən üzərində qələbəni şərtləndirib. Savaş başlanmazdan əvvəl qələbə əzmini gücləndirən musiqilər ifa edilib, döyüşçülər hücuma ruhlandırılıb. Hərbi musiqi haqqında məlumata Azərbaycan ədəbiyyatının qəhrəmanlıq dastanlarında - "Dədə Qorqud"da, "Koroğlu"da rast gəlinir. Cəngi, Misri havaları bu gün də öz möhtəşəmliyi ilə fərqlənir. Bu mahnılar insanlarda vətənpərvərlik, milli mənlik, mübarizlik, qəhrəmanlıq hisslərini daha da gücləndirir, hər bir döyüşçünü düşmən üzərində qələbəyə ruhlandırır.

**- Qədimdə hərbi musiqilərin səsləndirilməsində hansı alətlərdən istifadə olunub?**

- Keçmişdə hərbi musiqinin ifasında boru, nağara, davul və kusdan istifadə edilib. Bu gün həmin alətlərin təkmilləşmiş daha müasir formasından istifadə olunur.

**- Hərbi orkestr xidməti Azərbaycan ordu quruculuğunda hansı inkişaf yollarından keçib?**

- Bu gün Azərbaycan Ordusunun hərbi orkestri varislik ənənələrinə əsaslanaraq hərb tariximizin önəmli səhifələrini qürurla yaşadır. Bildiyimiz kimi, Azərbaycan Xalq Cümhuriyyətinin milli ordusunun yarandığı ilk vaxtlarda, mürəkkəb tarixi bir şəraitdə ordunun hərbi orkestrinin qısa müddətdə təşkili tarixi hadisə kimi yaddaşımıza yazılıb. Təsadüfi deyildir ki, 1919-cu ildə Bakıda Cümhuriyyətin yaranmasının birinci ildönümü ilə əlaqədar keçirilən hərbi paradı Azərbaycan Ordusunun hərbi orkestri müşayiət etmişdi. Xüsusi olaraq vurğulamaq istəyirəm ki, bu gün rəhbəri olduğum hərbi orkestrin hər bir üzvü, o cümlədən mən də tarixi ənənələrimizi yaşatmaqla, Vətənə, xalqa, dövlətə şərəflə xidmət edirik.

**- Yusif müəllim, siz ömrünüzün 21 ilini Sovet Ordusu sıralarında Xəzər Hərbi Dəniz Donanmasında xidmətdə keçirmisiniz. Hərbi xidmət keçməklə, azərbaycanlı zabit kimi hərbi orkestr sahəsində peşəkarlığınızı daim artırmısınız. O illərlə bağlı maraqlı hadisələrdən yadda qalanı varmı?**

- Əlbəttə, 1971 və 1983-cü illərdə Moskvada Qızıl meydanda keçirilən hərbi paradda drijor kimi iştirak etmişəm. Sovet Ordusunda xidmət illərimin ən yaddaqalan məqamlarındandır.1971-ci il 7 noyabr paradında Sovet Hərbi Dəniz Donanmasını Bakıda yerləşən Xəzər Ali Hərbi Dənizçilik Məktəbi təmsil edirdi. Biz Kutuzovski prospektində ifa etməli idik.



Şübhəsiz, proqramda hərbi donanmanın marşları var idi. Fikirləşdim ki, elə bir mahnı ifa etməliyik ki, dinləyicilərin milli kimliyimizdən xəbəri olsun. Biz orada bəstəkar Əlimərdan Əliyevin "Vətən" marşını ifa edəndə camaat dönüb bizə təəccüblə baxırdı. Elə bir dönəmdə Moskvada hərbi paradda Şərq musiqisinin səsləndirilməsi böyük hadisə idi. Hətta məktəb rəisi kontr-admiral Stepanov fasilə zamanı məndən bu barədə narazı tərzdə soruşmuşdu da... 1983-cü ildə isə hərbi paradı Mavzoley tribunasından izləyənlərin sırasında o zaman SSRİ rəhbərlərindən biri olan xalqımızın ümummilli lideri Heydər Əliyev də var idi. Mənim rəhbərlik etdiyim hərbi orkestrin çıxışları yüksək səviyyədə qiymətləndirildi. Mavzoley tribunasında dayanan Ulu Öndərin üzündəki razılıq təbəssümünü görməmək mümkün deyildi. O günləri həyatımın ən sevincli günləri kimi hər zaman xatırlayıram...

**- Müstəqilliyini yenidən bərpa edən Azərbaycanın milli ordu quruculuğunda hərbi orkestr xidmətinin təşkil olunduğu o çətin, ağır illəri necə xatırlayırsınız?**

- Düz 27 il öncə 1992-ci il iyulun 1-də Müdafiə Nazirliyinin Hərbi Orkestr Xidmətinin rəisi vəzifəsi mənə tapşırıldı. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığında böyük rol oynayan hərbi orkestrin yaradılması işinə böyük həvəslə başladım. Yuxarıda qeyd etdiyim bəzi məqamlardan bilirsiniz ki, bu sahədə böyük təcrübəm də var idi. Yaxşı yadımdadır, 1992-ci il oktyabrın 9-da Azərbaycan Ordusunun hərbi paradı keçirildi. Həmin paradın hərbi orkestrlə təmin edilməsi, eyni zamanda idarə edilməsi mənə həvalə olunmuşdu. Çatışmazlıqlar çox idi. Paradda xüsusi geyim formamız olmalı idi. O da yox idi. Təsəvvür edin, hərbi orkestr səhra geyim formasında paradı idarə edirdi. Tanınmış Azərbaycan bəstəkarlarının əsərlərini səsləndirdik. Bütün bu çətinliklərə baxmayaraq qarşıya qoyulan tapşırığı yüksək səviyyədə yerinə yetirdik.

Ordumuzun formalaşdığı ilk illərdə nümunəvi orkestrin solistləri döyüşə gedən briqadalarda şəxsi heyətin yolasalma mərasimlərində də iştirak edirdilər. Onlar orada vətənpərvər ruhlu mahnılar, marşlar səsləndirirdilər. Ümummilli Liderimizin rəhbərliyi altında aparılan ordu quruculuğu digər xidmətlərlə yanaşı, hərbi orkestr xidmətinin də daha müasir səviyyədə inkişafına təkan verdi. O illərdə qısa müddət ərzində Quru Qoşunlarında, Hərbi Hava və Dəniz Qüvvlərində, xüsusi təyinatlı təhsil müəssisələrində hərbi orkestrlər yarada bildik.

**- Hərbi orkestrlərin yaradıcı heyətində kadr məsələsi necə həyata keçirilir?**

- Neçə illərdir ki, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının nəfəs və zərb alətləri kafedrasına rəhbərlik edirəm. Bu kafedranın tərkibində hərbi drijorluq sinfi fəaliyyət göstərir. Bu gün həmin sinifdə hərbi drijorların hazırlanması, demək olar ki, hərb musiqimizin, hərbi orkestrlərin gələcək inkişafı üçün böyük zəmindir. İnanıram ki, burada təhsil alan hər bir istedadlı gənc sabah hərbi kadr kimi müxtəlif hərbi orkestrlərdə fəaliyyət göstərəcək.

**- Əlahiddə Nümunəvi Orkestrdə fəaliyyətinizlə bağlı nə deyə bilərsiniz?**

- Deməliyəm ki, Əlahiddə Nümunəvi Orkestr xidmətini ən yüksək səviyyədə həyata keçirməyi bacarır. Hələ indiyə qədər keçirilən rəsmi qarşılanma mərasimlərində heç bir nöqsanımız olmayıb. Hətta ölkəmizə qonaq gələn rəsmilər belə öz fikirlərini açıq şəkildə ifadə edirlər, minnətdarlıqlarını bildirirlər. 2015-ci ildə ölkəmizdə rəsmi səfərdə olan Əfqanıstan İslam Respublikasının Prezidenti əbədiyanar məşəlin önünə əklil qoyduqdan sonra mənə yaxınlaşıb dedi ki, sizin ifanızı çox bəyəndim. Sizə və sizin simanızda bütün Azərbaycan Ordusuna qələbə arzu edirəm. İndiyə qədər verdiyiniz şəhidlərə görə dərdinizə şərik olur, acınızı paylaşıram.

Bir neçə il öncə də İsrailin dövlət rəhbəri Netanyahu ölkəmizdə səfərdə olarkən onun xanım köməkçisi mənə yaxınlaşaraq rus dilində dedi ki, mənim də musiqi savadım var. Biz 50 məmləkətdə olmuşuq. Amma belə yüksək səviyyədə ifa, yəni, not olmadan ölkəmizin himnini ifa etmək mümkün olmayıb. Onu da qeyd edim ki, Əlahiddə Nümunəvi Orkestr çıxışlarını notsuz, yəni, əzbərləyərək təşkil edir. Çıxışlarımızın razılıqla qarşılanması təkcə bizim xidmətimizə deyil, bütün Azərbaycan Ordusuna verilən yüksək dəyərdir.

**- Son illər əlamətdar tarixlərdə - 9 May Qələbə Günü, 10 may ulu öndər Heydər Əliyevin doğum günü, 26 İyun - Silahlı Qüvvələr Günü Bakıda hərbi orkestrlərin çıxışları təşkil edilir. Bu çıxışlar şəhər sakinləri və qonaqları tərəfindən maraqla qarşılanır. Deməli, Hərbi Orkestr Xidmətinin bu istiqamətdə gördüyü işlər artıq ənənəvi hala çevrilib...**

- Elə bu yaxınlarda Bakıda Azərbaycan və Böyük Britaniya hərbi orkestrlərinin birgə nümunəvi çıxışları da oldu. Şəhərimizdə ikinci dəfə keçirilən bu tədbir böyük maraq doğurdu. Ümumiyyətlə, deyim ki, hərbi orkestrlərin çıxışlarında Azərbaycan, dünya klassiklərinin əsərlərinin, hərbi vətənpərvərlik mahnılarının, marşların səsləndirilməsinə xüsusi yer veririk. Azərbaycanın tanınmış bəstəkarlarından Üzeyir Hacıbəyovdan tutmuş Qara Qarayev, Fikrət Əmirov, Cahangir Cahangirov, Səid Rüstəmov, Vasif Adıgözəlov və başqaları vətənpərvər mövzuda əsərlər, musiqilər, marşlar yazıb bəstələyiblər. Vasif Adıgözəlovun vətənpərvər mövzuda yazdığı əsərlər bu gün Türkiyənin simfonik orkestrində ifa olunur.

**- Yusif müəllim, sizin bütün tədbirlərinizin böyük əksəriyyəti Koroğlu uvertürasının səsləndirilməsi ilə başlayır...**

- Bu düşmən üzərində qələbəyə bir çağırışdır. Bu il Aprel döyüşlərinin üçüncü ildönümü ilə əlaqədar geniş bir nümayəndə heyətinin tərkibində Cocuq Mərcanlıya səfərimiz oldu. Nümayəndə heyətinin tərkibində Fərhad Bədəlbəyli, Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, əslən Şuşadan olan ölkənin tanınmış ziyalıları, mədəniyyət, incəsənət xadimləri, millət vəkilləri və başqa şəxslər də var idi. Orada da tədbirlərimizi Koroğlu uvertürasının sədaları altında açdıq. Klubda, açıq havada şəxsi heyətin qarşısında böyük konsert proqramı ilə çıxışlar təşkil etdik. Klarnet, zurna, davulda səsləndirilən mahnılar əsgərlərimizdə böyük ruh yüksəkliyi yaratdı. Biz vətənpərvərlik mahnılarının, hərbi marşların sədaları altında əsgərlərimizlə rəqs etdik. Tezliklə tarixi torpaqlarımızda Qələbə uvertürasını səsləndirəcəyik. Ən böyük arzum Cıdır düzündə hərbi orkestrin müşayiəti llə Qələbə paradımızı keçirmək və orada çıxış etməkdir.

**- Maraqlı müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Mənəvi-psixoloji hazırlıqda ideoloji vasitə




*Azərbaycanın malik olduğu iqtisadi potensialı ilə bir sırada dövlətçilik tarixi, mədəniyyəti, incəsənəti, ədəbiyyatı dünya dövlətlərinin diqqətini çəkmiş, bu münasibət Azərbaycana böyük ehtiram qazandırmışdır. Ordu quruculuğu dövlət üçün prioritet olan Azərbaycanın güclü ordusu olması bu baxımdan təbiidir, qanunauyğundur, qibtədiləndir. 2018-ci ildə Bakıda Azərbaycan Ordusunun yaranmasının, Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan möhtəşəm paradlar bu ehtiramı daha da mətinləşdirdi, dönməzləşdirdi.*

Ordumuz indi dünyada ən güclü ordular sırasındadır. Onun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında müxtəlif forma və metodlar var. Hərbi hissələrdə şəraitə müvafiq seçilən mövcud üsullar, tətbiq edilən yeniliklər arzulanan nəticənin təmin edilməsində etibarlı vəsilə olur. Ön xətdə yerləşən "N" hərbi hissəsində təşkil edilmiş - böyük məsuliyyətlə, yaradıcılıqla yaradılmış ideoloji otaq belə etibarlı vasitələrdən biri kimi dəyərləndirilməlidir.

İdeoloji otağın mahiyyəti - məzmunu şəxsi heyətin dünyagörüşünün formalaşmasını, dövlətlə, dövlətçiliklə, ordu quruculuğuyla əlaqəli biliklərin zənginləşməsini təmin edir.

Bəzən bir şəkil müəyyən bir mövzu haqqında müfəssəl məlumat verməyə vasitə kimi qiymətlidir. Belə şəkillərdən ibarət guşə, belə guşələri birləşdirən, tamamlayan otaq daha məzmunlu olur, daha diqqətçəkən sujeti mətləbin şərhinə vizual mənbə bilmək məntiqi baxımdan nöqsanlı deyil. "N" hərbi hissəsinin ideoloji otağında stendlər bu baxımdan təşkil olunub və kifayət qədər geniş informasiyalıdır. Məzmunlu fakt-şəkillər yüksək zövqlə, estetik ülgü ilə tərtib edilib ki, bu da onların istər ayrılıqda, istərsə də vəhdətdə dərkini asanlaşdırır; stendlər metodiki mahiyyətiylə maarifləndirmə missiyası kimi anlaşılır. Məhz belə təşkil edildiyinə görə hərbi hissə ən yaxşı səyyar ideoloji məntəqə, guşə və ideoloji baxış-müsabiqənin qalibi olub...

Baş leytenant Bünyad Əliyev ideoloji otağın mənəvi-psixoloji hazırlıqda əhəmiyyətli olduğunu qeyd etdi.

"Heydər Əliyev Azərbaycan Ordusunun qurucusudur" guşəsi mahiyyəti etibarilə tarixi mənbə təsirindədir. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra Azərbaycanda dövlət boşluğu yaranması, separatçılıq meyilləri, vətəndaş qarşıdurması səviyyəsində daxili çəkişmələr dövlətçiliyə böyük təhlükə yaratmışdı. Xalqın ciddi təkidli tələbi ilə böyük tarixi şəxsiyyət Heydər Əliyev hakimiyyətə qayıtdı. Qısa müddətdə vətəndaş qarşıdurması da, dövlətçiliyə təhlükə yaradan separatçılıq meyilləri də aradan qaldırıldı, dövlətin iqtisadi inkişafını sürətləndirən beynəlxalq layihələr imzalandı, Azərbaycan dünyanın nüfuzlu təşkilatlarında təmsil olunmağa başladı. Bütün bunlarla bir sırada Azərbaycanda ordu quruculuğunda əsaslı dönüş yaradıldı - yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq təmin edildi, ordu nizami ordu kimi formalaşmağa başladı. Bu ordu Ulu Öndərin sərkərdəliyi ilə 1994-cü ilin əvvəllərində Horadiz əməliyyatı nəticəsində min hektarlarla ərazini azad etdi, şəxsi heyətin döyüş əzmi, qələbə ruhu yüksəldi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin döyüş bölgələrində, səngərlərdə əsgər və zabitlərlə söhbətləri də, fərqlənən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim etməsi də mənəvi-psixoloji hazırlığın səviyyəsini kifayət qədər yüksəltdi.

İdeoloji otaqda bir stendi digərinin davamı hesab etmək olar. Bu baxımdan "Ordunun inkişafı dövlət siyasətinin prioritetidir" stendi "Heydər Əliyev Azərbaycan Ordusunun qurucusudur" stendini məntiqi baxımdan tamamlayır. Fotoşəkillər son illərdə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatların mahiyyətini əks etdirir. Bunların hər biri kifayət qədər əhatəli informasiya daşıyıcısıdır: yeni hərbi hissələr, ordunun silahlanmasına daxil edilən ən müasir texnikalar, qurğular, şəxsi heyət üçün yaradılan şərait, Ali Baş Komandanın, Müdafiə Nazirliyi rəhbərliyinin ön xətdə, səngərlərdə əsgər və zabitlərlə söhbətləri, ... Bu məzmunlu stend Azərbaycan Ordusunun formalaşma mərhələlərini əhatələyən əyani vəsait kimi dəyərlidir.

"Ordu dövlətin müstəqilliyinin qarantıdır" stendinə ulu öndər Heydər Əliyevin nizami ordu kimi formalaşdırdığı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin inkişaf etdirdiyi ordunun dövlətin ərazi bütövlüyünü bərpa etməyə qadir olduğunun təsdiqi kimi baxılır. Şəkil-sənədlərin informasiyası dolğundur, müəyyən bilgi verməyə qadirdir.

2016-cı ilin Aprel döyüşləri, qazanılan qələbələr Azərbaycan Ordusunun təkcə gücünün deyil, həm də qüdrətinin təsdiqidir. Reallığı əks etdirən eksponatlara həm də güclü təbliğat vasitəsi demək mümkündür. Müvafiq tədbirlərdə bunlardan əyani vəsait kimi istifadə edilməsi səmərəli olur. Sözü şəkil-eksponat tamamlayanda, şəklin ifadə etdiyi məzmunu məntiqi baxımdan söz yekunlaşdıranda mahiyyət dinləyənə daha səmərəli şəkildə çatdırılır.

Hər şəkil-eksponat ordu quruculuğu prosesinin bir məqamını əks etdirdiyi üçün digər stendlər kimi bu stendin də elmi-metodoloji baxımdan mükəmməl hazırlandığını deyə bilərik.

"Azərbaycan Respublikasının dövlət rəmzləri" stendi əsgərin də hər zaman sayğılarla, sevgilərlə mənəvi ucalıqda yaşadılmalı olduğu dövlət rəmzlərini əhatələyir. Onsuz da heç zaman unudulmayan rəmzlər hər tədbirdə duyğusallıqla görünür, Vətəni, dövləti məhz bu rəmzləriylə ucalıqlarda, müqəddəslik mərtəbəsində yaşatmağın mənəvi borc olduğu xatırlanır; əsgərlərimiz dövlət rəmzlərimizi ehtiramla yaşadırlar...

Stendləri bir amal birləşdirir: Vətən, dövlət, dövlətə, dövlətçiliyə, Vətənə sevgi, ehtiram. İdeoloji otaq bu məfhumların daha duyğusallıqla yaşadılması istəyinin otağıdır. Bu otaq hərbi xidmətin təkcə Vətən qarşısında ödənilməli borc olmadığını, Vətən, dövlət, dövlətçilik ifadələrinin müqəddəsliyinin dərkinə istiqamətləndirməyə qadir olan otaqdır...

Baş leytenant Bünyad Əliyev dedi ki, burada müxtəlif məzmunlu, müxtəlif miqyaslı tədbirlər keçirilir. Əsgərlər bu otağa gələndə, obrazlı şəkildə desək, işığa gəlirmiş kimi gəlirlər. Burada keçirilən hər tədbir özlüyündə, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə xidmət edir. Bölmələrin döyüş fəallarıyla keçirilən görüşlər, bu və ya digər mövzuda müzakirələr istər ayrılıqda, istərsə də vəhdətdə ideoloji işin səmərəliliyini təmin edir.

Burada son illərin ən yaddaqalan hadisələrinə həsr olunmuş tədbirlər keçirilib: 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt zəfəri, qazanılan qələbələr, Azərbaycan Ordusunun və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar, irimiqyaslı təlimlərdən sonra verilən informasiya mahiyyətli məlumatlar saatı, ordu gənclərinin son toplantısında qarşıya qoyulan vəzifələr, ...

Baş leytenant Bünyad Əliyev onu da bildirdi ki, yaxın vaxtlarda bu otaqda Azərbaycan əsgərinin qazandığı Böyük Qələbədən, döyüşlərin qəliblərindən danışılacağına özü də inanır, əsgərləri də.

Öyrəndik ki, müvafiq tədbirlərdə ideoloji otaq həm də əsgərlərin fərdi keyfiyyətlərinin inkişafında vasitə olur. Belə ki, bəzi tədbirlərdə mövzunu dinləyicilərə çatdırmaq əsgərlərə tapşırılır, yaxşı nitq qabiliyyətinə malik olan əsgərlərin təfəkküründən, eləcə də digər yaradıcı keyfiyyətlərindən də istifadə edilir; "yaxşı əsgər - yaxşı vətəndaş" amalı bu hərbi hissədə də fəaliyyətin tərkib hissələrindəndir.

İdeoloji otaqda xidmətdə fərqlənən hərbi qulluqçularla görüş - tanıtma tədbirləri də böyük coşqu ilə keçirilir.

Bu otaq hərbi hissənin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının hansı mənbələrə əsaslandığını göstərən otaqdır. Bu otaq əsgərlərin hərbi xidmətdən sonrakı illərinin də Vətənlə bağlılığını dönməzləşdirəcək otaqdır...

"N" hərbi hissəsində ideoloji otaq əsgərlərin döyüş əzminin, qələbə ruhunun yüksəlməsində ideoloji vasitədir...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**foto C.CƏFƏROVUNDUR**

# "Konflikt jurnalistikası məktəbi"nin növbəti auditoriya təlimi




Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində növbəti auditoriya təlimi keçirildi.

Tədbiri giriş sözü ilə açan "Dinc Dünya" Araşdırma Mərkəzinin rəhbəri Əlisəfa Mehdiyev ekstremal şəraitdə işləyən jurnalistlər üçün qanunvericilik aktlarının öyrənilməsi, ekstremal şəraitdə jurnalistlərin praktiki davranmaları ilə bağlı təcrübələrin keçirilməsi, jurnalistin psixoloji hazırlığı, konkret situasiyalarda davranış mexanizmləri, əldə edilmiş informasiyanın işlənməsi, beynəlxalq təcrübələrdən də yararlanma kimi məqamları qeyd etdi. Natiq bildirdi ki, görüş çərçivəsində keçirilən təlim hərbi mövzuda yazan jurnalistlərin peşəkarlıqlarının artırılması, bu sahədə yazan jurnalistlərin yetişdirilməsi baxımından mühüm addımdır. Layihə çərçivəsində keçirilən təlimlər hərbi sahəni işıqlandırmağın hüquqi, təcrübi və psixoloji normalarına, ekstremal jurnalistikanın qaydalar bazasının yaradılmasına, cəbhədən xəbərlər yayan media nümayəndələrinin peşəkarlığının artırılmasına yönəlib.



Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin zabiti polkovnik İdris Məhərrəmov təlim iştirakçılarını salamlayaraq, ordumuzun döyüş hazırlıqları barədə danışdı. "Ordumuzun döyüş hazırlığı səviyyəsi durmadan yüksəldilir, şəxsi heyət müasir silah və texnika ilə təchiz edilir, yeni poliqonlar inşa edilir, döyüş şəraitinə uyğun təlimlər həyata keçirilir. Vəzifəsindən asılı olmayaraq, hər bir hərbi qulluqçu verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Ordu rəhbərliyinin dəfələrlə bəyan etdiyi kimi, təlimlər, yoxlamalar və digər tədbirlər əsgər və zabitlərimizin müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduqlarını, döyüş qabiliyyətlərini və peşəkarlıqlarını, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarıqlarını əhəmiyyətli dərəcədə artırdıqlarını göstərir. Ordu üçün əsas məsələ hərbi təhsil, nizam-intizam və təchizatdır. Azərbaycan Ordusu bu gün həm nizam-intizamına, həm təhsilinə, həm də təchizatına görə öndədir. Jurnalistlərin qarşısına qoyulan məqsəd isə ordu haqqında dəqiq və dolğun informasiyanı cəmiyyətə olduğu kimi çatdırmaqdır".

Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızın azad edilməsinə hər zaman hazırdır və bu hazırlığın möhkəmləndirilməsi üçün işlər görülür. Məqsəd ordumuzun döyüş hazırlığını yüksək səviyyədə saxlamaq, daim inkişaf etmək və müasir hərbi texnika ilə ordumuzun təchiz edilməsini təmin etməkdir. Azərbaycan Ordusunda aparılan islahatlar, ordunun maddi-texniki təchizatının yaxşılaşdırılması, kadr dəyişiklikləri ordumuzun daha da güclənməsinə, qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirməsinə xidmət edir. Güclü ordu dövlətin suverenliyinin zəmanətidir. Güclü Azərbaycan Ordusu respublikamızı düşmənlərdən qorumağa, təhlükəsizliyimizi təmin etməyə qadirdir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Minnətdarlıq*

# Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinə diqqət və qayğı daimidir

*Qarabağ müharibəsi əlillərinin, veteranlarının və şəhid ailələrinin sosial problemlərinin həlli, həyat şəraitinin yaxşılaşdırılması hər zaman dövlətin diqqət mərkəzindədir. Müharibə əlilləri, veteranları və şəhid ailələri bu siyasətin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, yüksək dövlət qayğısı ilə əhatə olunduqlarını vurğuladılar, dövlət başçısına minnətdarlıqlarını bildirdilər.*



**Vəfalı Safiyev:**

- 1972-ci ildə Qərbi Azərbaycanın Kalinino rayonunun Qızıldaş kəndində anadan olmuşam. Bu gün də həsrətini çəkdiyim dədə-baba torpaqlarımızdan 1988-ci ildə deportasiya olunduq. Bakı şəhərində məskunlaşdıq. Orta məktəbi Keşlə qəsəbəsində bitirib, Sovet ordusunda qulluq etdim.

Vətənimizin başının üstünü qara buludların aldığı bir vaxtda - 1992-ci ilin qanlı-qadalı günlərində könüllü olaraq cəbhəyə yollandım. Mən bir Azərbaycan vətəndaşı olaraq Vətənin dar günündə rahat otura bilməzdim.

1993-cü ilin 26 dekabrı... Füzuli rayon Yuxarı Kürdmahmudlu, Alıxanlı kəndləri uğrunda döyüşlər gedirdi. Düşmən güllələrinin ardıarası kəsilmir, mərmi yağışından göz açmaq olmurdu. Lakin bu, bizi qətiyyən qorxutmur, mübarizlik əzmimizi qıra bilmirdi. Çünki bilirdik ki, düşmənimiz qorxaq, ikiüzlü, riyakar, insanlıqdan uzaqdır. Şiddətli döyüşlər zamanı mənimlə bərabər çiyin-çiyinə vuruşan neçə-neçə mərd oğullar Vətən uğrunda gözlərini belə qırpmadan şəhid oldular. Döyüşlər zamanı yaralananlar da az deyildi. Mən də həmin xəsarət alanlar arasında idim. Bu döyüşlərdə sol ayağımı itirdim.

II qrup Qarabağ müharibəsi əliliyəm. Lakin yaşadıqlarım bir an olsun belə mənim "insan son nəfəsinə kimi Vətəni üçün yaşamalıdır" fikrimi dəyişdirmədi.

O illərdən çox vaxt keçsə də, yenə də o dəhşətli günlər xatirimdən çıxmır, çıxmayacaq da. Mən əlil olmağıma baxmayaraq torpaqlarımızın işğaldan azad olunmasında iştirak etməyə hazıram. Bu gün müharibə veteranlarına böyük qayğı var. Mən də bu qayğıdan bəhrələnmişəm. Dövlət tərəfindən ev və maşınla təmin olunmuşam. Bu gün ali təhsil alan övladım dövlət tərəfindən təhsil haqqından azad olunub. Bizə göstərilən qayğıya görə dövlətimizə, Prezidentimizə, birinci vitse-prezidentimizə, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdaram.

**Elnarə Qurbanova:**

- Həyat yoldaşım II qrup Qarabağ əlili Ramiz Qurbanov 21 oktyabr 2009-cu ildə döyüşlərdə aldığı ağır güllə yaralarından dünyasını dəyişdi. O, 1971-ci ildə Zaqatala rayonunun Tala kəndində anadan olmuşdu. 18 avqust 1992-ci ildə könüllü olaraq Qarabağda başlayan döyüşlərə gedib. 14 avqust 1996-cı ildə müharibədən ağır yaralanaraq qayıdıb. İştirak etdiyi ağır döyüşlərdən, erməni quldurlarına qarşı vuruşan şəhid oğullarımızın qəhrəmanlığından, igidliyindən hər kəsə danışmaqdan yorulmazdı. Deyirdi ki, gərək onları hamı tanısın, onların adları unudulmamalıdır. Ramizin döyüşçü yoldaşları ilə bağlı çoxlu maraqlı xatirələri vardı. Çox vətənpərvər idi. Tezliklə torpaqlarımızı düşmən tapdağından azad et-



mək arzusu ilə yaşayırdı. Dövlətimizin, dövlət başçımızın yüksək diqqət və qayğısı sayəsində iki övladımızı onun adına layiq övlad kimi böyütdüm. Həyat yoldaşım dünyasını dəyişəndə onlar çox kiçik yaşlarında idi. Bu gün mən bir ana kimi qürur hissi keçirirəm ki, onlar atasının arzularını həyata keçirməyə, Vətənin müdafiəsinə qalxmağa həmişə hazırdırlar. Böyük oğlum Aqşin Qurbanov Cəmşid Naxçıvanski adına Hərbi Liseyin II kursunda oxuyur. Özü də nümunəvi kursantdır. Azərbaycan Ordusunun gələcək zabitidir. Qəzetiniz vasitəsilə bizə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dünyasını dəyişən Qarabağ qazisinin ailəsi adından minnətdarlığımı bildirirəm.

**Yaqut İsmayılova:**

- Həyat yoldaşım Vaqif İsmayılov I qrup əlil idi. 2018-ci il iyunun 2-də rəhmətə gedib.



Vaqif çox vətənpərvər bir insan idi. Mənfur qonşularımız torpaq iddiası ilə soydaşlarımıza divan tutanda o heç cür rahatlıq tapa bilmirdi. 1992-ci ildə Yasamal könüllü müdafiə dəstəsinin sıralarında döyüşlərə atıldı.

Vaqif sonralar o günləri xatırlayanda deyirdi ki, əgər o zaman xalqın təkidli tələbi ilə hakimiyyətə ulu öndər Heydər Əliyev gəlməsəydi, vəziyyət çox acınacaqlı ola bilərdi.

Yaxşı yadımdadır, 1993-cü il noyabrın 2-si ulu öndər Heydər Əliyev xalqa çağırış edən zaman Vaqif Bakıya bizə baş çəkməyə gəlmişdi. Ümummilli Liderin çağırışından sonra ordu sıralarına qoşuldu. Horadiz Beyləqan istiqamətində döyüşlərə atıldı...

Tarix boyu xalqımızın mərd, vətənpərvər oğulları çox olub. Vətənsevər insanların rəşadəti mübarizəsini söz ilə ifadə etmək çətindir. Qəhrəman insanlarımız dünən də var idi, bu gün də var, sabah da olacaq.

Vaqif iki övladına da daim Vətəninə, torpağına, millətinə layiq olmağı tövsiyə edərdi. Oğlunu torpaqlarımızı işğaldan azad edəcək ordumuzun sıralarında görməyi arzulayardı.

Mən bir müharibə veteranı ailəsi olaraq deyə bilərəm ki, bu gün dövlətimiz tərəfindən bizlərə böyük qayğı var. Bütün bunlar dövlətimizin vətənpərvər insanlara, torpaq uğrunda vuruşanlara necə önəm verdiyini göstərir.

Bu günlərdə Müdafiə Nazirliyinin rəhbərliyinin keçirdiyi görüşə məni də dəvət etmişdilər. Sözün əsl mənasında, belə bir dövlətin vətəndaşı olmağımla qürur duydum. Həyat yoldaşımın həyatda olmamasına baxmayaraq, onu xatırlayırlar, ailəsinə dəyər verir, problemləri ilə maraqlanırlar. Mən bir Azərbaycan vətəndaşı, Qarabağ müharibəsi veteranı ailəsi olaraq Prezidentimiz İlham Əliyevə, birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlığımı bildirirəm. Çox sağ olsunlar ki, bizim kimi insanlara öz diqqət və qayğılarını əsirgəmirlər.

**III qrup Qarabağ əlili İlham Nəcəfov:**

- 1970-ci ildə Siyəzən rayonunda anadan olmuşam. Keçmiş Sovet Ordusu sıralarında artilleriya bölmələrindən birində hərbi xidmət keçmişəm. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü ilin noyabrındakı müraciətindən dərhal sonra könüllü olaraq milli ordu sıralarına daxil oldum. "N" hərbi hissəsinin artilleriya bölməsində Murovdağ uğrunda gedən döyüşlərdə iştirak etdim. Orada da ağır yaralandım. Bu gün biz Qarabağ qaziləri, veteranları Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşərək onun döyüş əmrinə həmişə hazırıq. O günü səbirsizliklə gözləyirəm. Dövlətimizin rəhbəri Qarabağ əlillərinə, vete-



ranlarına və şəhid ailələrinə öz diqqət və qayğısını heç zaman əsirgəmir, sosial vəziyyətimizlə bağlı qərarlarını, göstərişlərini verir. Yaranmış imkanı dəyərləndirərək, qəzetiniz vasitəsilə bizə göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin təşəkkürümü bildirirəm.

**Baş leytenant Günay TAĞIYEVA, Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu", fotolar C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ Prezidenti tarixdə ilk dəfə KXDR ərazisinə ayaq basıb



ABŞ Prezidenti Donald Tramp ilə Koreya Xalq Demokratik Respublikasının (KXDR) lideri Kim Çen In iki Koreya arasında faktiki sərhəd rolunu oynayan demilitarizasiya zonasında görüşüblər.

Donald Tramp Kim Çen Inla birlikdə sərhəd xəttinin KXDR tərəfinə keçərək, əl sıxışıblar. Sonra hər iki lider Cənubi Koreya tərəfə keçərək jurnalistlərin suallarını cavablandırıblar. Beləliklə, Donald Tramp KXDR ərazisinə ayaq basan ilk ABŞ Prezidenti olub.

Qeyd edək ki, Cənubi Koreyada səfərdə olan Donald Tramp Prezident Mun Ce-inlə birlikdə yerli vaxtla 13:50-də demilitarizasiya zonasına gəliblər. Dövlət başçıları əvvəlcə ərazidə xidmət edən hərbçilərlə söhbət ediblər. Bir qədər sonra isə KXDR lideri Kim Çen In demilitarizasiya zonasında yerləşən Panmuncon qəsəbəsinə gələrək, Prezident Donald Tramp ilə görüşüb.

## İraq Silahlı Qüvvələri İŞİD-in beş yaraqlısını məhv edib



İraq Silahlı Qüvvələri İŞİD terror qruplaşmasının Suriyadan ölkə ərazisinə keçməyə cəhd edən beş yaraqlısını məhv edib. Bu barədə İraqın təhlükəsizlik orqanları məlumat yayıb.

İraqın Suriya ilə sərhədi bu cür insidentlərin qarşısını almaq üçün həmişə nəzarət altındadır.

## Almaniyada hərbi helikopter qəzaya uğrayıb



Almaniyanın Aşağı Saksoniya əyalətində Bundesverə (AFR Silahlı Qüvvələri) məxsus hərbi təyyarə qəzaya uğrayıb.

Bu məlumatı Focus Online nəşri Almaniya Yanğınsöndürmə Xidmətinə əsasən yayıb. İlkin məlumatlara görə, helikopterin qəzaya uğraması nəticəsində ən azı bir nəfər həlak olub. İnsident Ertsen kommunasının yaxınlığında Xameln-Pirmont rayonunda baş verib. Helikopter meşəlik əraziyə düşərək yanıb.

Bu, son səkkiz gündə Bundesverin Hərbi Hava Qüvvələrinin texnikasında baş vermiş ikinci qəzadır. İyunun 24-də Almaniyanın şimalındakı Mürits gölü ərazisində Eurofighter Typhoon markalı iki qırıcı təyyarə toqquşmuş və pilotlardan biri həlak olmuşdu.

## Kabildə terror aktı nəticəsində 50 uşaq yaralanıb



Əfqanıstanın paytaxtı Kabildə törədilmiş partlayış nəticəsində azı 50 uşaq yaralanıb.

Bu barədə Pajhwok agentliyi ölkənin təhsil nazirliyinə istinadla məlumat yayıb.

TOLOnews telekanalının xəbərinə görə, hücumda iştirak edən terrorçuların zərərsizləşdirilməsi üzrə əməliyyat davam edir. Onların hadisə yerindəki binalardan birində gizləndikləri bildirilir.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, terror aktı nəticəsində bir nəfər həlak olub, 65 nəfər yaralanıb. Bir sıra KİV-lər isə xəbər verirlər ki, ölənlərin sayı 10 nəfərdən 34 nəfərədək ola bilər. Minalanmış avtomobil paytaxtın diplomatik məhəlləsində partladılıb. Həmin ərazidə Əfqanıstan Milli Müdafiə Nazirliyinin obyektlərindən biri yerləşir.

Terror aktının məsuliyyətini "Taliban" hərəkatı üzərinə götürüb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Fiziki hazırlıq*

# “Qələbəyə fiziki cəhətdən də hazırıq”

Günün nizam qaydası əsgərlərin gündəlik fəaliyyətini müəyyənləşdirir. Fiziki hazırlıq da günün nizam qaydasının ayrılmaz və önəmli hissələrindəndir. Hər gün təyin olunan vaxtda, müəyyən edilən qaydada icra edilən idman hərəkətləri ilə şəxsi heyət nə qədər çox məşğul olsa, o qədər fiziki cəhətdən möhkəm, güclü və sağlam olar. İdman tədbirləri zamanı əldə edilən güc şəxsi heyətin döyüş qabiliyyətinə də müsbət təsir göstərir. Fiziki hazırlıqla məşğul olan hərbi qulluqçu daha möhkəm, dözümlü və yüksək əhval-ruhiyyədə olur. Sağlam bədənə, üstün döyüş texnikasına malik olan əsgərlər döyüş tapşırıqlarını çevik, dəqiq və vaxtında yerinə yetirirlər. Bu səbəbdən də hər sahəyə olduğu kimi, şəxsi heyətin fiziki hazırlığına da mühüm yer ayrılır. Bütün hərbi hissələrdə əsgər və zabitlərin idmanla məşğul olması üçün idman meydançaları, müasir avadanlıqlarla təchiz olunmuş trenajor sinifləri mövcuddur. Yaradılan şəraitdən lazımınca istifadə edən əsgərlər də fiziki hazırlıq dərslərinə diqqət göstərir, böyük həvəslə idmanla məşğul olurlar. Hər kəs bilir ki, döyüş meydanından həm fiziki, həm də mənəvi cəhətdən hazırlıqlı olmaqla qalib ayrılmaq olar.

"N" hərbi hissəsində günün nizam qaydasına uyğun olaraq döyüş hazırlığı, ictimai-siyasi hazırlıq, taktiki və atəş hazırlığı dərsləri ilə yanaşı, fiziki hazırlıq məşğələsinin də yüksək səviyyədə təşkilinin şahidi oldum. Əsgərlər çavuş Murad Muradovun rəhbərliyi ilə idman şəhərciyinin qarşısında təyin olunmuş formada düzüldülər. İsinmə hərəkətləri icra olunduqdan sonra turnikdə, paralel qollarda və digər alətlərdə idman hərəkətləri yerinə yetirildi. Əsgərlərin idman hərəkətlətini böyük həvəs və çevikliklə yerinə yetirməsi əminlik yaradır ki, şəxsi heyət yetərincə fiziki hazırlığa malikdir.



Fiziki hazırlığa üstünlük verən və daima idmanla məşğul olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu çavuş Murad Muradov dedi ki, hər yaşda idman insanın sağlamlığının cövhəridir. Cəlilabad rayonunda dünyaya göz açan Murad uşaq yaşlarından idmana maraq göstərdiyini bildirdi. Həmçinin birləşmə üzrə keçirilən beşnövçülük idman yarışlarının da iştirakçısı və mükafatçısı olduğunu dedi.

- Atam həmişə deyirdi ki, sağlam insanlar müharibə meydanında düşmənə qarşı mübarizə apararaq, həyatının hər anında güclü və dəyanətli olmalıdır. Mən də atamın dediklərinə əməl edib, həyatımın hər anında idmanla məşğul olacam və döyüş meydanından qalib əsgər kimi qayıdacam. İdmana olan marağımı və həvəsimi şəxsi heyətə də aşılayıram. Fiziki gücün döyüş hazırlığına müsbət təsirindən danışıram. Gündəlik təyin olunmuş saatlarda idmanla məşğul oluruq, bununla yanaşı, kütləvi idman tədbirləri, futbol, voleybol, qaçış, uzuna tullanma üzrə yarışlar keçirdirik. Bu da şəxsi heyətdə idmana olan marağı daha da artırır, sağlam mühit formalaşdırır. Təbii ki, döyüş hazırlığına da təsir göstərir. Gördüyünüz kimi, hər bir əsgərin fiziki hazırlığı yaxşıdır. İstənilən normativi yerinə yetirə bilirlər. Bir sözlə, döyüş meydanına girmək üçün həm taktiki cəhətdən hazırıq, həm də fiziki.

İdmana həvəs göstərən əsgərlərdən Firavan Səlimov, Xasay Cəfəri, Rəşad Pirəliyev və Sabir Həsənzadənin idman hərəkətlərinə diqqət edirəm. Onlar turnikdən sonra, paralel qollarda digər idman qurğularında məşqlərini davam etdirdilər. Çavuş M.Muradovun verdiyi bütün tapşırıqları uğurla yerinə yetirərək çeviklik və möhkəmlik nümayiş etdirdilər. Məşqlərini yekunlaşdıran əsgərlərlə qısa söhbət etdik.

Əsgərlər bildirdilər ki, idmanla məşğul olmaq özgüvənlərini artırır. "Silahlardan istifadə etməyi, döyüş taktikasını mükəmməl öyrənməklə yanaşı, fiziki vərdişlərimizi də artırmalıyıq ki, öyrəndiklərimizi döyüş meydanında cəld və vaxtında tətbiq edə bilək. Döyüş zamanı bir mövqedən digərinə ani bir zamanda sıçramaq, tez vaxtda özünə yeni mövqe tutmaq və digər fəaliyyətlər fiziki güc tələb edir. Bunun üçün də hər gün idmanla məşğul oluruq. Yaxşı bilirik ki, qarşımızda duran ən birinci vəzifə - torpaqlarımızın işğaldan azad olunmasıdır. Bunun üçün də Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazırıq. Torpaqlarımızı yağılardan geri qaytarmaq üçün həm döyüş hazırlığımız, həm də fiziki hazırlığımız yüksəkdir. Düşməni məhv etməyə tam qadirik."

Hər zamankı kimi "sağlam bədəndə sağlam ruh olar" sözləri gəlir ağlıma. Əsgrlərimizin qolunda qüvvət, canında sağlamlıq, ürəyində Vətən sevgisi varkən, düşmənə qalib gələcəyimiz gün yaxındadır.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

## Minskdə ikinci Avropa Oyunlarının bağlanış mərasimi keçirilib

İyunun 30-da Belarusun paytaxtı Minskdə ikinci Avropa Oyunlarının bağlanış mərasimi keçirilib.

"Dinamo Arena"da keçirilən bağlanış mərasimində Belarus, Rusiya, Tacikistan prezidentləri ilə yanaşı, Beynəlxalq və Avropa Olimpiya komitələrinin prezidentləri iştirak ediblər. Bundan başqa bir sıra ölkələrin nazirləri, o cümlədən Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə də iştirak ediblər.

Bağlanış mərasimi Belarusun dövlət himninin səslənməsi ilə başlayıb. Sonra iştirakçı dövlətlərin bayraqları gətirilib. Azərbaycanın keçidi zamanı bayraqdar II Avropa Oyunlarının qızıl mükafatçısı karateçi Asiman Qurbanlı olub. Daha sonra Avropa Olimpiya Komitəsinin bayrağı endirilib.

Bundan sonra Belarus Prezidenti Aleksandr Lukaşenko çıxış edib.

Xatırladaq ki, tarixdə ilk Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda keçirilib. Azərbaycan bu mötəbər idman yarışının təşkili üçün qalan 30 aylıq qısa müddətdə hazırlıq prosesini yüksək səviyyədə başa vuraraq Avropa Oyunlarının standartlarını müəyyənləşdirib. "Bakı 2015"də uğurla çıxış edən Azərbaycan millisi komanda hesabında ikinci yerdə qərarlaşıb. İdmançılarımız Oyunlarda 56, o cümlədən 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanıblar.

Üçüncü Avropa Oyunları 2023-cü ildə Polşanın Krakov şəhərində keçiriləcək.

## İkinci Avropa Oyunları: 28 medal qazanan Azərbaycan millisi 10-cu yerdə qərarlaşıb

Minskdə keçirilən ikinci Avropa Oyunlarında 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşıb.

Komandamız oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurub.

Yarışın sonuncu günündə - iyunun 30-da 36 dəst medalın sahibləri müəyyənləşib. Azərbaycan millisi "Minsk 2019"un sonuncu günündə aktivinə 3 gümüş və 1 bürünc medal yazdırıb. Gümüş medalları karateçilərimizdən Firdovsi Fərzəliyev (60 kq), Rafael Ağayev (75 kq), yunan-Roma güləşi yarışında isə İslam Abbasov (87 kq) qazanıblar. Bürünc medala isə yunan-Roma güləşçisi Sabah Şəriəti (130 kq) sahib olub.

Ümumilikdə 200 dəst medala 43 ölkə təmsilçisi yiyələnib. Onlardan cəmi 34-ü qızıl medal sevinci yaşayıb. Bakıda keçirilmiş ilk Avropa Oyunlarında olduğu kimi, ikinci Avropa Oyunlarında da Rusiya komandası medal siyahısında birinci yeri tutub. Rusiyalı idmançıların aktivində 109 (44-23-42) medal var. İkinci yerdə 69 medalla ev sahibləri Belarus (24-16-29), üçüncü pillədə isə 51 medalla Ukrayna (16-17-18) yığmaları qərarlaşıblar. İlk onluqda İtaliya, Hollandiya, Almaniya, Gürcüstan, Fransa, Böyük Britaniya və Azərbaycan komandaları yer alıblar.

**AZƏRTAC-ın**
**materialları əsasında**

*Hərbi texnikalar, silahlar*

# TAR-21 (“Tavor”) avtomat silahı



TAR-21 (Tavor Assault Riffe-21) İsrailin İsrael Weapon Industries Ltd konserni tərəfindən 1993-cü ildə hazırlanmış 5,56x45 mm kalibrli müasir "Tavor" avtomat silahıdır. Onun adı Tavor dağından götürülüb. Son adı "Tavor" TAR-21 olan avtomat "bull-pap" sxemi üzrə hazırlanıb. Silahda 20-30 patron tutumu olan M16 avtomatının maqazinindən istifadə edilir. TAR-21 avtomatının üzərində müxtəlif növlü müasir və dəqiq nişangahlar və gecəgörmə cihazları quraşdırmaq olar. Yüksək dərəcədə zərbəyə davamlıdır, gövdəsində səsbatırıcı da quraşdırmaq olar. Silah müxtəlif illərdə dəfələrlə sınaqlardan keçib.

2004-cü ildən hal-hazırda kimi istismardadır və bir çox ölkələrin silahlanmasında yer alır. TAR-21 avtomatının çəkisi 3,27 kiloqram, uzunluğu 725 mm, lüləsinin uzunluğu 460 mm-dir. Atəş tezliyi dəqiqədə 750-900, güllənin başlanğıc sürəti 910 metr-saniyə, effektiv atəş məsafəsi 550 (lülə və sursat növündən asılı olaraq) metrdir. Silah əlavə müasir cihazlandırma ilə də təchiz edilə bilər.



Onun CTAR-21, STAR-21, MTAR-21, TC-21 kimi müxtəlif güllələrdən istifadə edilən, müxtəlif uzunluqlu, nişangah uzaqlığına, sürətə malik olan variantları da mövcuddur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Baş leytenant Əsədzadə Binnət Yavər oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 520
Nüsxə 3950